**18.02.2026**

# ELAN

## Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin patent müvəkkili statusu almaq istəyən şəxslərin Attestasiyası Komissiyası

**Əqli Mülkiyyət Agentliyinin Attestasiya Komissiyası patent müvəkkili statusu almaq istəyən şəxslərin sənədlərinin qəbulunu ELAN edir.**

Patent müvəkkili olmaq istəyən şəxslər nümunəsi Əqli Mülkiyyət Agentliyinin **copat.gov.az** saytının **"Patent müvəkkilləri"** bölməsində yerləşdirilmiş **ərizəni** Azərbaycan dilində dolduraraq və ərizəyə aşağıdakı sənədləri əlavə edərək pdf fayl formasında Agentliyin **info@copat.gov.az** e-poçt ünvanına göndərməlidirlər:

**1.** Ali təhsil haqqında sənədin (diplomun) notarial qaydada təsdiq edilmiş surəti;

**2.** Azərbaycan Respublikası ərazisində daimi yaşayış yeri haqqında arayış;

**3.** Sənaye mülkiyyətinin mühafizəsi sahəsində xüsusi kursu bitirməyə dair sənəd (olduğu halda);

**4.** Sənaye mülkiyyətinin mühafizəsi sahəsində ən azı iki il stajın, habelə hüququn tətbiqi və tədrisi sahəsində ən azı iki il stajın olması barədə arayış, yaxud əmək kitabçasının surəti;

**5.** Şəxsiyyət vəsiqəsinin surəti;

**6.** Namizədin patent müvəkkili kimi attestasiya olunması üçün müəyyən edilmiş haqqın ödənilməsini təsdiqləyən sənəd;

**7.** 4x6 ölçüdə 4 ədəd rəngli fotoşəkil.

Sənədlər 2026-cı il **18 fevral - 11 mart** tarixlərində şənbə və bazar günləri, habelə 8 Mart Beynəlxalq Qadınlar Günü istirahət günü (bazar günü) ilə üst-üstə düşdüyünə görə qeyri-iş günü sayılan 9 mart tarixi istisna olmaqla 15 iş günü müddətində qəbul olunur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 fevral tarixli 21 nömrəli Qərarı ilə təsdiq edilmiş "Patent müvəkkilləri haqqında Əsasnamə"nin 5-ci hissəsinə əsasən sənaye mülkiyyətinin mühafizəsi sahəsində xüsusi kurs bitirən və ya həmin sahədə ən azı iki il iş stajı olan şəxslər, həmçinin hüququn tətbiqi və tədrisi sahəsində ən azı iki il stajı olan hüquqşünaslar attestasiyada iştirak edə bilərlər.

Patent müvəkkili kimi attestasiya olunmaq istəyən şəxs **copat.gov.az** saytının "Patent müvəkkilləri" bölməsində göstərilən bank hesabına Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 may tarixli 247 nömrəli Qərarı ilə müəyyən edilmiş **20** manat məbləğində haqq ödəməlidir.

Patent müvəkkilliyinə namizədlər üçün **"Yaddaş Kitabçası"**nın elektron versiyası Agentliyin copat.gov.az internet saytında "Patent müvəkkilləri" bölməsində yerləşdirilmişdir.

Əlavə məlumat almaq istəyənlər **960 - "Çağrı Mərkəzi"**nə müraciət edə bilərlər.

**Qeyd:** Attestasiya iki mərhələdən ibarətdir. Birinci mərhələdə namizədin sənaye mülkiyyəti obyektləri (ixtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı, coğrafi göstərici) və müəlliflik hüququ (kəsişmə hallarında) ilə bağlı Azərbaycan Respublikasının normativ hüquqi aktları, habelə Azərbaycan Respublikasının qoşulduğu müvafiq beynəlxalq sazişlər (müqavilələr) üzrə və sənaye mülkiyyəti obyektlərinə hüquqların mühafizəsinin Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi və Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə tənzimlənməsinə dair biliklərinin yoxlanılması test imtahanı formasında Dövlət İmtahan Mərkəzi tərəfindən aparılır. İkinci mərhələ isə Attestasiya Komissiyası tərəfindən müsahibə formasında keçiriləcək.